Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Moskva restoranında partlayışda azı 3 nəfər ölüb

3 saat öncə




Hadisənin baş verdiyi ərazi

Avqustun 2-də Moskvanın mərkəzində restoranda əldəqayırma partlayıcı qurğu işə salınıb, azı 3 nəfər ölüb, 21 nəfər yaralanıb. İstintaq orqanları partlayışın arxasında kimin dayandığını müəyyənləşdirməyə çalışır.

Hadisə avqustun 1-də yerli vaxtla saat 20:00 radələrində Rusiya paytaxtının mərkəzinə yaxın Kudrinskaya meydanındakı restoranda baş verib.

Milli Antiterror Komitəsinin məlumatına görə, ölənlər partlayıcı qurğunu restorana gətirməkdə şübhəli bilinən qadın, onun içəri daxil olmasının qarşısını alan mühafizəçi və restoranın qonaqlarından biri olub.

Bəzi mənbələr 5 nəfərin öldüyünü bildirsə də, Rusiya rəsmiləri bunu hələ təsdiqləməyiblər.

Partlayış "Balzi Rossi" italyan restoranında baş verib. Restoranın internet səhifəsindəki məlumata görə, həmin vaxt məkan özəl tədbir üçün bağlanmışdı.

Müstəqil "Astra" rusdilli nəşrinin Telegram kanalı restoranda rusiyalı generalın tədbirinin keçirildiyini, məkanda hərbi avtomobillərin saxlandığını yazıb.

Jurnalist Oleq Kaşin tədbirin Rusiyanın Hərbi-Kosmik Qüvvələrinin komandanı, general-polkovnik **Aleksandr Çayko**nun şərəfinə təşkil olunduğunu ehtimal edib.

Rusiya rəsmiləri, hələlik, hücumun mümkün hədəfi barədə açıqlama verməyiblər.

Rusiya dövlət mediasının yazdığına görə, partlayıcı naməlum qadının restorana daxil olmasının qarşısı alındıqdan sonra işə düşüb.

“Reuters” agentliyi "Kommersant" qəzetinə istinadla yazıb ki, bomba restoranın yay terrasındakı insanları öldürmək və ya yaralamaq məqsədi ilə uzaqdan işə salınmış ola bilər.

Məlumata görə, ola bilsin, qurğunu daşıyan qadın onun partlayıcı olduğunu bilməyib.

Rusiya hakimiyyəti bu cür hücumlara görə dəfələrlə Ukraynanı ittiham edib. Amma Kiyev 1 avqust partlayışına görə məsuliyyəti üzərinə götürməyib.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur